**Gülsəidə Abdullayeva,**
*Nadir kitablar və kitabxana muzeyi şöbəsinin müdiri*

# NADİR KİTABLARIN NADİR İMZALARI

***Xülasə:*** *Məqalədə Milli Kitabxananın Nadir kitablar fondunda mühafizə edilən və görkəmli şəxsiyyətlərin imzalarının, möhürlərinin olduğu bir neçə qiymətli kitab haqqında məlumat əks olunur.*

***Abstract:*** *The article contains information about several valuable books preserved in the rare books fund of the National Library with the signatures and seals of prominent personalities.*

***Резюме:*** *В статье представлена информация о ряде ценных изданий, хранящихся в фонде Редких книг. Особенное внимание уделяется ценным экслибрисам и личным печатям выдающихся личностей на этих книгах.*

***Açar sözlər:*** *Milli Kitabxana, Nadir fond, nadir kitab, qiymətli nəşr, möhür, imza.*

***Key words:*** *National Library, Rare fund, rare book, valuable publication, seal, signature.*

***Ключевые слова:*** *Национальная Библиотека, Редкий фонд, редкая книга, ценные издания, экслибрис, подпись.*

"Bədii söz səltənətindən davamlı və əbədi səltənət yoxdur və nə qədər ki, mürəkkəbin qaralığı kağızın ağlığında parlayır, sözün üzzəti həmişə təzə olacaq, solmayacaq" - bu fikirlər XII əsrdə yaşamış Azərbaycan ədibi, mütəfəkkiri Əbubəkr ibn Xosrov əl-Ustada məxsusdur. Min illər keçsə də, bu fikirlər öz mənasını itirməyib. Çünki, bu yeni texniki yüksəliş əsri olan XXI əsrdə də sözün, kitabın və bu kitabların toplandığı kitabxanaların əhəmiyyəti heç də azalmayıb. Böyük bir tarixi inkişaf yolu keçmiş dünya kitabxanalarının tarixi qədər qədim olmasa da, bu il yüz yaşını qeyd edən Azərbaycan Milli Kitabxanasının Nadir fondu ilə bir daha tanış olaq.

Dilindən, əlifbasından, nəşr yerindən asılı olmayaraq nadir kitablar ictimai əhəmiyyəti, elmi, mədəni və ya tarixi dəyərləri təmsil edən və mənəvi, estetik çap xüsusiyyətlərinə malik nəşrlərdir. Nadir kitab məzmununun dəyərinə görə ədəbiyyatın görkəmli abidəsi hesab oluna bilər. Nadir kitablara - mənəvi və maddi mədəniyyət abidələri, klassik hesab olunan ilk əsərlər, görkəmli sənətkarların hazırladığı sənət abidələri, müxtəlif çap üsulları olan ilk nümunələr, qeyri-adi formatlı kitablar aid olunur. Bu kitabların maraqlı cəhətlərindən biri də odur ki, onların səhifələrində görkəmli şəxsiyyətlərin, ədiblərin, ictimai xadimlərin imzalarına, müəyyən qeydlərinə rast gəlmək olur.

Görkəmli şəxsiyyətlərin imzalarının toplanmasına hələ qədim dövrlərdən başlansa da, XVI əsrin sonlarında imzaların toplanması Fransada yeni bir vüsət aldı və maraqlı kolleksiyalar toplandı. Bu kolleksiyalar bu gün də tədqiqatçıların maraq dairəsindədir. Kitablarda təkçə imzalar deyil, həm də kitabın vaxtilə kimə mənsubluğunu bildirən möhürlər və müəyyən yazılara rast gəlmək olur.

Azərbaycan Milli Kitabxanasının fondlarında müxtəlif dövrlərdə yaşamış görkəmli şəxslərin imzaları olan kitablar qorunmaqdadır. Bunlar Azərbaycanın ictimai, tarixi, ədəbi, mədəni həyatında müəyyən fəaliyyətləri olan görkəmli şəxsiyyətlərdir. Bu kitablar həmin şəxsiyyətlərin elmi, ədəbi, mənəvi dünyagörüşləri baxımından maraqlıdır. Nadir kitablar fondunda qorunan kitabları vərəqləyərəq gələcək nəsillərə tanıtdırıb bu şəxsiyyətləri bir daha yad edək.

Bildiyimiz kimi, 2023-cü ildə Azərbaycan dövlətçilik tarixində müstəsna xidmətləri olan görkəmli ictimai-siyasi, dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi tamam olur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir" deyən Ulu Öndər 1995-1997-ci illərdə Azərbaycan Milli Kitabxanasında dörd dəfə olmuş və kitabxanaya öz şəxsi kitabxanasından 300 nüsxəyədək kitab bağışlamışdır. Ümummilli liderimizin kitabxanaya hədiyyə etdiyi kitablar arasında öz imzası olan "Qlobal üfüqlər: Prezident Əliyevin ABŞ səfəri" adlı kitab da vardır.

XVI əsrdə yazılmış görkəmli şəxslər, İran və qonşu ölkələr haqqında ən qədim dövrdən başlayaraq Şah İsmayıl Səfəvi dövlətinin hakimiyyəti dövründə baş vermiş tarixi hadisələr haqqında məlumatların məcmusu olan Xandəmir Qiyasəddin ibn Hümaməddin əl Hüseyninin "Həbibüs-siyər" (B-540) adlı tarixi əsərinin 1855-ci ildəki nəşrinin titul vərəqində Qafqaz Ruhani İdarəsinin müftisi, Qori Müəllimlər Seminariyasının müəllimi, maarifpərvər, publisist, ədəbiyyatşünas bir ziyalı olan **Mirzə Hüseyn Əfəndi Qayıbov**un (1830-1917) imzası vardır.

XIV əsr farsdilli lirik poeziyanın görkəmli şairi Hafiz Şirazinin 1851-ci ildə nəşr olunmuş (B-497) "Divan" kitabı Azərbaycan Xalq Cümhuriyyətinin üzvü, Azərbaycan maarifində xüsusi xidmətləri olan pedaqoq, tərcüməçi, ədib **Abdulla bəy Əfəndizadə**nin (1873-1928) imzasını mühafizə edir.

Ulu Öndər Heydər Əliyevin kitabxanaya hədiyyə etdiyi kitablar içərisində bir kitabda "Çox hörmətli cənab Heydər Əliyev Azərbaycan Respublikasının möhtərəm və sevimli prezidenti hüzuruna ithaf edirəm. B., 21 mart 1994-cü il" yazısı və müəllifin imzası vardır. Bu imza Pişəvəri hökumətinin süqutundan sonra 1946-cı ildən Şimali Azərbaycanda siyasi mühacir həyatı yaşamış ədəbiyyatşünas, tərcüməçi, mətnşünas, filologiya elmləri doktoru, professor

**Qulamhüseyn Beqdeli**yə (1919-1998) məxsus olan, 1994-cü ildə Tehranda nəşr olunmuş "Tarixi Beqdeli-Şamlı" kitabıdır.

Kitablarda imzalarla yanaşı, bəzən şəxsi kolleksiyalara aidliyini bildirən möhürlərə də rast gəlirik. Nadir fondda Azərbaycanda realist aktyor məktəbinin banisi, teatr xadimi **Cahangir Zeynalov**un (1865-1918) kitabxanasının möhürü olan iki ədəbiyyat mühafizə olunur.

Birinci kitab XII-XIII əsrin böyük mütəsəvvüfi şairi və sufizm nəzəriyyəçisi, klassik türk ədəbiyyatında dərin izlər buraxan, özündən sonra gələn bir çox Şərq alim və şairlərin yaradıcılığına güclü təsiri olan **Fəridəddin Əttar**ın (1136-1221) 1870-ci ildə nəşr olunmuş "Məntiqüt-teyr" (B-221) əsəridir.

İkinci kitab isə tarixçi, şair, pedaqoq **Rzaqulu xan Hidayət**in (1800-1871) "Riyazül-arifin" (B-515) adlı kitabıdır.

Azərbaycan dilçilik elminin inkişaf tarixində xüsusi yeri olan böyük türkoloq alim, yeni əlifba uğrunda böyük mübariz, istedadlı ədəbiyyatşünas və şair, elmi yaradıcılığının genişlənməkdə, nüfuzunun artdığı bir vaxtda əksinqilabi millətçi pantürkist damğası ilə 1937-ci ilin repressiya qurbanı olan **Bəkir Vahab oğlu Çobanzadə**nin (1893-1938) kitabxanasına mənsubluğunu bildirən möhür vardır. Qəribədir ki, cismani məhv etdikləri alimin adını şəxsi kitabxanasında olan kitablardan da silməyə cəhd etmişlər, ancaq kitabın bir səhifəsində möhür salamat qalmışdır. Türk dünyasının görkəmli şəxsiyyətlərinin və türk ədəbiyyatının misilsiz nümunələri olan kitablar:

- Türk dilinin, tarixinin, mədəniyyətinin, mənəviyyatının tədqiqi baxımından türk dünyasının ensiklopediyası sayılan və ilk dəfə 1915-1917-ci illərdə İstanbulda nəşr olunmuş **Mahmud Kaşğari**nin üç cildlik "Divani-lüğət-it-Türk" (B-1893, B-1894, B-1895) əsəri;
- Nizami ədəbi məktəbinin davamçılarından biri və türkdilli xalqların ədəbiyyatında ana dilində ilk "Xəmsə" yazan dahi özbək şairi və mütəfəkkiri **Əlişir Nəvai**nin (1441-1501) 1915-ci il Daşkənddə nəşr olunan "Divan" (B-2608) kitabı;
- XVI əsr türk təzkirəçiliyinin ən önəmli nümunələrindən biri **Lətifi Qəstəmonulu**nun (1491-1582) "Təzkirətüş-şüəra" (Təzkirəyi-Lətifi) təzkirəsinin ilk, 1896-cı il nəşri.

Nadir fondda qorunan kitablar içərisində XX əsr Azərbaycan bibliofil və biblioqrafı, araşdırmaçı, şair, ömrünün böyük bir hissəsini Azərbaycan müəlliflərinin əsərlərinin tədqiqinə həsr etmiş, zəngin bir kolleksiya toplamış **Novruz Ağagül oğlu Ağayev**in (1870-1948) böyük tacik şairi, musiqişünası, filosof və alimi **Əbdürrəhman Cami**nin (1414-1492) 1856-cı ildə Təbrizdə

nəşr olunmuş “Yusif və Züleyxa” (B-356) adlı kitabında kolleksiyaçının möhürü və Azərbaycan karikatura sənətinin banisi Əzim Əzimzadəyə hədiyyə edilməsi haqqında yazı vardır: “Azərbaycanın məşhur rəssamı yoldaş Əzim Əzimzadəyə təqdim olunur”.

Eyni yazı və möhür 1887-ci ildə Laknauda nəşr olunmş **Şəms Təbrizi**nin “Divani-həzrəti Şəms” kitabında (B-353) da mövcuddur.

Nadir kitablar fondunda saxlanılan nəşriyyat tarixinin ilk dövrlərində, 1573-cü ildə nəşr olunmuş “Homer ilə Hesiodun mübahisəsi” kitabında İ.A.ZALYSKİ yazısı vardır. Bu soyad Polşa kilsə və dövlət xadimi, bibliofil, dövrünün zəngin bir kolleksiyasını toplamış Yuzef Andrey Zaluskiyə (1702-1774) məxsusdur. Dünyanın ilk milli kitabxanalarından biri hesab olunan bu kitabxana kədərli bir tale yaşamışdır. 1795-ci ildə Zaluski Kitabxanası Sankt-Peterburqa gətirilmiş, 1923 və 1935-ci illərdə əlyazmaların bir hissəsi Polşa dövlətinə qaytarılmışdır. Təəssüf ki, 1944-cü ildə kitabxana dağıdılmış, yandırılmışdır. Bu gün həmin kitabxananın müəyyən kolleksiyası salamat qalmışdır.

Bunlar Nadir kitablar fondunda olan incilərin bir qismidir. Bu imzalar içində Firudin bəy Köçərli, Nəriman Nərimanov, Əli Səbri Qasımov, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Şirməmməd Hüseynov, Fərhad Zeynalov, Cavad Heyət, Kamal Talıbzadə, Seyidağa Onullahi kimi görkəmli şəxsiyyətlərin imzalarına, Azərbaycan xalqının maariflənməsi yolunda təmənnasız fəaliyyət göstərən xeyirxah insanlardan biri olan Məmmədqulu bəy Kəngərli, knyaz M.Usmiyevin şəxsi kitabxanalarının möhürlərinə də rast gəlirik.

## ƏDƏBİYYAT

**1.** Cami, Əbdürrəhman. Yusif və Züleyxa /Ə.Cami.- Təbriz: [s. n.], 1273 h. (1856).- 136 s.: ill. http://web2.anl.az:81/read/page.php?bibid=498014&pno=1

**2.** Əttar, Fəridəddin. Məntiqüt-teyr /Fəridəddin Əttar; naşir. Kərbəlayi Məhəmməd.- [Tehran]: [s. n.], 1287 h. (1870).- 284 s.: ornamentlərlə bəzədilmiş.

**3.** Xandəmir Qiyasəddin ibn Hümaməddin əl Hüseyni. Həbibüs-siyər /Xandəmir Qiyasəddin ibn Hümaməddin əl Hüseyni. Cild 1-3.- [Bombey]: [s. n.], 1272-1273h. (1855-1856).- 97, 60, 96, 84, 65, 54, 82, 191, 141, 80, 373, 118, 50 s.: ornamentli.

**4.** Qlobal üfüqlər: Prezident Əliyevin ABŞ Səfəri /red. B.Bler, J.Qəribova; naşir P.Xanlı; sponsor Texaco; tərtibatı və çapı Azerbaijan International; fotoqraflar X.Abbasova, R.Bağırov, B.Bler [və b.].- ABŞ: [Azerbaijan

International], 1997.- 68 s.
**5.** Nəvai, Əlişir. Divan /Əlişir Nəvai; naşiri Mirzə Əhməd Mirzə Kərim oğlu.- Daşkənd: [s. n.], 1334h. (1915).- 70 s.
**6.** Rzaqulu xan Hidayət. Riyazül-arifin /Rzaqulu xan Hidayət; naşiri. Molla Əbdülhüseyn Xunsari, Molla Mahmud Xunsari.- Tehran: [s. n.], 1305h. (1887).- [15], 368 s.: ornamentli, 26 sm.
**7.** Şirazi, Hafiz. Divan /Hafiz Şirazi.- Təbriz: [s. n.], 1268h. (1851).- 341 s.
**8.** Təbrizi, Şəms. Divani-həzrəti Şəms /Şəms Təbrizi.- Laknau: [s. n.], 1887.- 435, 4 s. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000498015